## «MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI» KOALİSİYASI

# 2007 – Cİ İL ÜÇÜN PROQRAM SƏNƏD

2006-cı il dekabrın 22-nde keçirilən Ümumi Yığıncaqda qəbul edilib

## 1. CARİ VƏZİYYƏT

Beynəlxalq "Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü"nün Azərbaycanda həyata keçirilməsində vətəndaş cəmiyyətini təmsil edən İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması" Koalisiyası artıq 3 ilə yaxın müddətdir ki, həmin "Təşəbbüs"ün prinsipləri və meyarları çərçivəsində öz Əsasnaməsində nəzərdə tutduğu məqsədlərə çatmaq üçün fəaliyyət göstərir.

Bu müddət ərzində Koalisiya öz sıralarını genişləndirmiş və cəmiyyətdə artıq tanınmış bir quruma çevrilmişdir. Neft gəlirlərinin şəffaflığı ilə məşğul olan Koalisiya əslində Azərbaycanda bütövlükdə vətəndaş cəmiyyəti quruluşu yolunda faydalı bir məktəb olmuşdur. Koalisiyanın sıralarının genişlənməsi bu illər ərzində ona üz tutan yeni təşkilatların - bilavasitə neft gəlirləri üzrə ixtisaslaşmayan daha geniş dairədə fəaliyyət göstərən və demək olar ki Azərbaycanın çoxsaylı regionlarını əhatə edən QHT-lər hesabına təxminən 3 dəfə artmışdır. Məhz çoxsaylı və rəngarəng fəaliyyət dairəsinə malik olan yeni üzvlərin hesabına Koalisiya cari ildə "Neft gəlirləri hamımızındır" kampaniyasını keçirmiş və ilk dəfə olaraq maarifçilik fəaliyyətini əsasən regionlara yönəltmişdir.

Bununla yanaşı, bu dövr ərzində beynəlxalq miqyasda da Koailisiyaya diqqət mərkəzində olmuşdur. Məhz MSŞA Koalisiyası neft gəlirəlrinin şəffaflığı sahəsində ilk belə təşkilatlanmış qurum kimi meydana gəlmiş və bu səbəbdən də bir sıra ölkələr üçün önəmli təcrübə rolunu oynamışdır.

2006-cı ildə Koalisiya ACİ YF, Dünya Bankı, Ebert Fondu, NOWIB Oxfam və Counterpart təşkilatlarının maliyyə dəstəyi ilə özünün 2006- 2007-ci illəri əhatə edən iki illik fəaliyyət planının birinci hissəsini uğurla həyata keçirib. Belə ki, bu müddətdə Koalisiya:

- Azərbaycan Hökumətinin gəlirlərlə bağlı açıqlanan hesabatlarını və bu hesabatları neft şirkətlərinin hesabatları ilə tutuşduran müvafiq audit şirkətlərinin rəylərini qiymətləndirib və öz rəylərini ictimaiyyətə açıqlayıb;
- audit şirkətinin seçimində digər maraqlı tərəflərlə bərabər zəmində iştirak edib;
- Bakıda 3 günlük beynəlxalq konfransın təşkilatçısı olub (6- 8 aprel);
- vətəndaş cəmiyyəti nümayəndələrinin, tələbələrin, regionlarda yerli özünü idarəetmə orqanları nümayəndələrinin və vətəndaşların məlumatlılığının artırılması məqsədilə 4, KİV-lərlə bağlı, ARDNŞ-də müasir idarətmənin tətbiqinin yubanmasının səbəblərinin araşdırılması, neft şirkətləri, dövlət

strukturları, media, QHT və müstəqil ekspertlər arasında sorğu keçirilməsi, TV-də tok- şouların, radioda isə radio- dialoqların təşkili və s. ilə bağlı müxtəlif layihələr həyata keçirib;

- 1 ay davam edən "Neft gəlirləri hamımızındır" ictimai təbliğat kampaniyası çərçivəsində 9 layihə həyata keçirilib və Bakıda geniş konfrans təşkil edilib;
- müxtəlif çap məhsulları hazırlayıb və yayıb;
- istər yerli, istər regional, istərsə də beynəlxalq tərəfdaşları ilə yaxşı əlaqələr qurub və əməkdaşlıq edib.

2006-cı ildə görülən işlər barədə daha ətraflı məlumat Koalisiyanın vebsaytında (www.eiti-az.org ) əks etdirilir.

Bütün bu uğurlarla yanaşı Koalisiyanın ötən dövrdəki fəaliyyətini tam mənada sistemli və ardıcıl adlandırmaq çətindir. Bir sıra hallarda Koalisiyanın fəaliyyəti "nəyin vacibliyi" yox "nəyin maliyələşəbiləcəyi" prinsipinə əsaslanıb. Belə olan halda isə Koalisiyanın enerjisi və potensialı qarşısında duran əsas hədəflərdən yayınmış olur. Gələcək dövrlərdə hər hansı pərakındəliyə yol verməmək məqsidilə, Koalisiya Şurası 5 prioritet sahə seçibdir ki, fəaliyyətini məhz bu sahələrdə cəmləşdirmək əzmindədir. Bu aşağıda təsvir edilen sahələrdir.

## 2. KOALİSİYANIN PRİORİTET FƏALİYYƏT SAHƏLƏRİ

### *1-ci Prioritet sahə: Yerli və xarici neft şirkətlərinin fəaliyyətində şəffaflığın artırılması*

Bu istiqamət çərçivəsində neft şirkətləri ilə dövrü görüşlər təşkil etmək və sistemli şəkildə onların bu və ya digərinin az açıq olmasını bir mesaj kimi həm onlara, həm də cəmiyyətə bildirmək bacarığımızı göstərmək əsas vəzifəmiz olmalıdır. Şərti olaraq, PWYP-in mövqeyi beynəlxalq miqyasda neft və qaz sənayesində çalışan transmilli şirkətlər (TMŞ-lər) üçün necə önəmlidirsə, bizim də mövqeyimiz Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri üçün ən azı bir o qədər vacib olmalıdır ki, vətəndaş cəmiyyəti təmsilçilərinin şəffaflıq və səmərəlilik tələblərini eşitsinlər və fəaliyyətlərini bu tələblərə uyğun qursunlar. Buna nail olmaq üçün beynəlxalq səviyyəli QHT –lərdən də yararlanmaq olar. Onlarla əlaqələrimizi möhkəmlətməli və inkişaf etdirməliyik.

Azərbaycanda "Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü" yalnız neft və qaz ehtiyyatlarının istismarından əldə edilən gəlirləri əhatə edir. Koalisiya şurası hesab edir ki, artıq bu çərçivənin genişləndirilməsi və digər təbii ehtiyyatları da tədricən bu proseslərə cəlb etməyin vaxtı çatıb.

Beləliklə 1-ci prioritet sahədə 2007-ci ildə Koalisiyanın aşağıdakı növlərdə fəaliyyəti məqsədə uyğun hesab edilir:

- yerli şirkələrin beynəlxalq mühasibat standartlarına keçidinin monitorinqi;
- mədən sənayesində işləyən yerli şirkələrin gəlirlər təsnifatının müəyyənləşdirilməsi və bu gəlirlərin monitorinqi;

- neft hasilatı, satışı və istehlakı proseslərinin təhlili və monitorinqi;
- qaz hasilatı, satışı və istehlakı proseslərinin təhlili və monitorinqi;
- digər təbii ehtiyatların (neft və qazdan başqa) istismarından əldə edilən gəlirlərin MHŞT proseslərinə cəlb edilməsi və monitorinqi;
- təbii ehtiyatların istismar edilməsinin ətraf mühitə təsirinin monitorinqi;
- şirkətlərin yerli resurslardan istifadəsinin monitorinqi;
- şirkətlərin öz işçiləri ilə davranışın monitorinqi;
- şirkətlərə məxsus obyektlərin ətrafında yaşayan insanların hüquqlarının qorumnası.

***2-ci Prioritet sahə: Neft Fondundan maliyələşən layihələrin monitorinqi və bunların səmərəliliyinin təhlili***

Neft Fondunun 2006-cı il üzrə büdcəsindən bir sıra layihələrin maliyələşdirilməsinə başlanmışdır. Lakin bu xərcləmələrin əksəriyyəti ictimai nəzarətdən kənarda qalmış. 2007-ci il üzrə də NF-dan yeni layihələrin maliyələşdirilməsi gözlənir. Hər iki ildə maliyələşən layihələrin monitorinqi Koalisiyanın əsas prioritetlərindən olmalıdır. Əlbətdə, bu növ monitorinqi keçirən vətəndaş cəmiyyəti təmsilçiləri müvafiq layihə sahəsində konkret bilik və bacarığa malik olmalıdırlar. Bu məqsədlərlə Koalisiya təmsilçilərinin xüsusi treninqdən keçmələrinə və hətta monitorinqə ekspertlərin dəvət edilməsinə ehtiyac olacaq.

Bu prioritet sahədə 2007-ci ildə Koalisiyanın aşağıdakı növlərdə fəaliyyəti məqsədə uyğun hesab edilir:

- 2006-cı və 2007-ci illərdə Neft Fondundan maliyyələşdirilən layihələrin və idarəyə verilən vəsaitlərin monitorinqi;
- Neft Fondu büdcəsinin monitorinqi;
- "Neftqaz gəlirlərinin səmərəli istifadəsi" mövzusunda beynəlxalq konfransın keçirilməsi;
- Neft gəlirlərinin qismən itirilməsi risklərinin qiymətləndirilməsi və onların azadılmasına dair təkliflərin hazırlanması;
- Mədən sənayesində şəffaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi.

***3-cü Prioritet sahə: Neft gəlirlərinin şəffaflığı ilə bağlı informasiyanın ictimailəşməsi və maarifçilik. Koalisiya və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlığın gücləndirilməsi***

Bu istiqamətdə artıq kifayət qədər təcrübə toplanılıb. Bu işlər növbəti ildə davam etdirilməlidir. 2007-ci ildə əsas görüləcək işlər bunlardır:

- vətəndaş cəmiyyəti qurumlarının güc və bacarığının artırılması;
- vətəndaş cəmiyyəti imkanlarının səfərbər edilməsi;
- KİV-lərin güc və bacarığının artırılması. KİV-lərlə əməkdaşlıq;
- Vətəndaşların məlumatlılığı və neft gəlirlərinin səmərəli istifadəsinə maraqlarının artırılması kampaniyalarının keçirilməsi.

***4-cü Prioritet sahə: MHŞT dair Memorandumu üzrə Koalisiyanın üzərinə düşən vəzifələrin icrası, özünün institusional imkanlarının, bilik və bacarığın artırılması***

Ardıcıllıq baxımından bu istiqamətdə işlər daha əvvəl başlanılmalıdır. Yalnız bu halda 2007-ci ildə fəaliyyətimizin ümumi səmərəliliyinin artırılmasına nail olmaq mümkündü. Bunun üçün vaxt itirmədən 2007-ci il üçün koalisiyanın fəaliyyətinin təmin edilməsi məqsədi ilə bu sahədəkə işlərin ilk növbədə maliyyələşdirilməsinə nail olmaq lazımdır.

4-cü prioritet sahədə vacib olan fəaliyyət növləri bunlardır:

- MHŞT üzrə auditin nəticələrinin təhlili və ictimaiyyət üçün açıqlanması;
- Koalisiyanın güc və bacarığının artırılması və fəaliyyətinin təmin edilməsi.

***5-ci Prioritet sahə: Beynəlxalq və regional əməkdaşlıq.***

Bu prioritet sahə üzrə aşağıdakı ictimai və maliyyə qurumları ilə əməkdaşlıq vacib sayılır:

- MHŞT Katibliyi;
- PWYP Koalisiyası;
- MHŞT milli QHT Koalisiyaları;
- Dünya Bankı qrupu və MHŞT-ni dəstəkləyən digər beynəlxalq maliyyə qurumları.

## 3. PRİORİTETLƏR ÜZRƏ MÜMKÜN FƏALİYYƏT NÖVLƏRİ

Prioritet sahələr üzrə konkret fəaliyyət növləri siyahısı MHŞT Memorandumunda tərəflərin vəzifələrinə, Koalisiya prioritetlərinin yeni formatına, ötən dövrlərdəki təcrübəyə, MHŞT-nin beynəlxalq sahədə inkişafı istiqamətləri və Koalisiya üzvlərinin ideyaları və təkliflərinə əsasən Koalisiyanın Şurası tərəfindən təsdiq edilir.

## 4. KOALİSİYA FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ RESURSLARI VƏ PRİNSİPLƏRİ

Koalisiya Fəaliyyətini təmin edən insan resursları Koalisiya üzvlərindən və Koalisiya xaricindən cəlb edilən mütəxəssislərdən ibarət olacaq.

Fəaliyyətin müvəffəqiyyəti və miqyası tələb olunan maliyyənin əldə edilməsindən asılı olacaq. Bu maqsədlə beynəlxalq donor təşkilatları (Açıq Cəmiyyət İnstitutu, Oxfam Novib təşkilatı, Fridrix Ebert Fondu və sair), Dünya Bankı və digər maliyyə institutları, MHŞT-nün inkişafı üçün donor dövlətləri tərəfindən yaradılan xüsusi “Trast Fondu” ilə iş aparılacaq. Azərbaycan dövlət büdcəsindən də maliyyə resurslarının əldə edilməsi imkanları nəzərdən keçiriləcək. Potensial donorlara onların seçiminə uyğun olaraq Ümumi Layihənin və ya fəaliyyət növləri siyahısı baxılmaq üçün təqdim ediləcək. Donor bu və ya digər fəaliyyət növlərini maliyyələşdirmək qərarını bildirdikdə ona həmin növlər üzrə konkret qrant layihəsi təqdim edilir və Koalisiya üzvü olan məsul icraçı təşkilat və şəxs bildirilir.

Fəaliyyət aşağıdakı prinsiplərə əsaslanacaq:

- fəaliyyət növlərinin Ümumi Qrant Layihəsində əks etdirilməsi;
- Ümumi Layihənin icrasına mümkün qədər çox sayda Koalisiya üzvlərinin cəlb edilməsi;
- Müəlliflik hüquqlarına riayət edilməsi. Fəaliyyət növləri siyahısına daxil edilmiş təklifin müəllifi həmin növ üzrə layihə rəhbəri olmaq hüququna malikdir. İdeya müəllifi bir nəfərdən artıq olduqda Koalisiya Şurası müəlliflərin birgə layihə icraçılığına çalışır;
- 2007-ci il ərzində Koalisiya üzvləri tərəfindən təklif edilən yeni ideyalar yalnız onların yuxarıda sadalanan prioritetlərə uyğun olduqları halda Şura tərəfindən dəstəklənir və Koalisiya layihəsi statusu qazanır;
- Koalisiya üzvü bir qayda olaraq (müstəsna hallar əsaslandırılmalı və Şurada təsdiq edilməlidir) yalnız bir layihəyə rəhbərlik edə bilər.